# Uşaqlar şəkil çəkəndə...

*Tofiq Mahmud. Seçilmiş əsərləri. I cild. Bakı - 2003*

"Tofiq Mahmud həyatını, ömrünü uşaq ədəbiyyatına, uşaq mətbuatına həsr eləmişdi. "Göyərçin" jurnalının redaksiyasında göyərçin xislətli bir ömür yaşayırdı. Özündən sonra göyərçin xislətli bir xatirə qoyub getdi".




Bu sətirlər unudulmaz Tofiq Mahmudun "Seçilmiş əsərləri"nin birinci cildinə yazılmış ön sözdəndi. Mərhum şairin qələm dostu, uzun illər bir yerdə çalışdığı filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun xatırlamalarından bir yarpaqdı. Əlavə edəcəyimiz bircə fikir qalır ki, indi Tofiq Mahmudun qoyub getdiyi o göyərçin xislətli xatirəsinin ətri onun içdən gələn, səmimi şeirlərindən daha çox gəlməkdədi. Zaman bu şeirlərin ruhuna toxunmayıb. O şeirlərin ruhunca yaşadığımız anlarda yenə də baxıb görürük ki, dönüb bir uşaq oluruq bahar gələndə, qəlbimiz nurlanır dan sökülәndə. O şeirlərin ruhunca yaşadığımız anlarda dilimiz yenə də ötmək istəyir ki:

*Bulud, göylərdən çəkil,*
*duman, göylərdən çəkil!*
*Uşaqlar şəkil çəkir,*
*uşaqlar şəkil çəkir...*

"Seçilmiş əsərləri"n birinci cildinə Tofiq Mahmudun uşaq şeirləri və poemaları, eyni qəbildən olan nəsr əsərlərindən nümunələr daxil edilib. Bu yazılanlarda yenə də göyün Göy gölə enə bilmək istəyinin şəklini çəkən şairin isti duyğuları oxucuyla nəfəs-nəfəsədi, hələ də əzgil nemətlərində bitən, bu meşəliyin dərinliklərində itən uşaqların heyrəti dipdiridi, hələ də sazan balıqları nəğmə oxuyur bu yazılanlarda.

Kitaba daxil edilən əsərlərilə bir arada bütün həyatını, ömrünü uşaq ədəbiyyatına, mətbuatın inkişafına, balalarımızın, gənclərimizin təlim-tərbiyəsinə, onların dünyagörüşünün formalaşmasına həsr edən Tofiq Mahmud özü də yaşayır və yaşadır.

**S.Hüseynoğlu**